# EMBAWOOD MMC

Milli Mühasibat Uçotu Standartlarına
uyğun şəkildə hazırlanmış

Konsolidə edilmiş Maliyyə Hesabatları
və Müstəqil Auditorun Rəyi

31 dekabr 2016-cı il
tarixində bitən il üzrə

**MÜNDƏRİCAT**

***Səhifə***

KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI


Müstəqil Auditorun Rəyi........................................................................................................1

Konsolidə edilmiş Maliyyə Vəziyyəti haqqında Hesabat ..................................................................3

Konsolidə edilmiş Məcmu Gəlirlər haqqında Hesabat........................................................................4

Konsolidə edilmiş Kapitalda Dəyişiklik haqqında Hesabat ................................................................5

Konsolidə edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat.......................................................6

Konsolidə edilmiş Maliyyə Hesabatlarına aid Qeydlər.......................................................................7

Babək Plaza, 8-ci mərtəbə,
Xətai ray., Babək pros.1022,
AZ1025, Bakı, Azərbaycan

Telefon: [994] 12 488 07 85
Faks: [994] 12 488 07 85
www.bestaudit.az

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**Embawood MMC-nin Rəhbərliyinə:**

**Rəy**

Biz, Embawood MMC və onun törəmə müəssisəsi olan Masallı Konserv Zavodu ASC-nin (bundan sonra birlikdə "Qrup" adlandırılacaq) 31 dekabr 2016-cı il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş məcmu gəlirlər haqqında hesabatdan, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 23 iyul 2007-ci il tarixli I-73/1 nömrəli əmri ilə təsdiq edilmiş Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (bundan sonra "MMUS") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MMUS-a uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Best Audit LLC
Member firm of Russell Bedford

Bakı, Azərbaycan Respublikası

28 aprel 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti "BEST AUDIT" Limited Liability Company AZERBAIJAN REPUBLIC



«RUSSELL BEDFORD INTERNATIONAL»
ŞƏBƏKƏSİNİN ÜZV FİRMASI

Telefon: [994] 12 488 07 85
Faks: [994] 12 488 07 85
www.bestaudit.az

**Embawood MMC**
**Konsolidə edilmiş Maliyyə Vəziyyəti haqqında Hesabat**
(Azərbaycan Manatı ilə)

| | Qeyd | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 4 | 5,181,576 | 5,565,246 |
| Daşınmaz əmlaka investisiyalar | 5 | 1,278,236 | 1,374,447 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **6,459,812** | **6,939,693** |
| **Qısamüddətli aktivlər** | | | |
| Qısamüddətli debitor borcları | 7 | 10,412,455 | 11,120,487 |
| Sair qısamüddətli aktivlər | 8 | 6,087,183 | 2,563,393 |
| Ehtiyatlar | 6 | 23,714,836 | 6,512,680 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 15,299,078 | 1,992,016 |
| **Cəmi cari aktivlər** | | **55,513,552** | **22,188,576** |
| **CƏMİ AKTİVLƏR** | | **61,973,364** | **29,128,269** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 10 | 3,750 | 3,750 |
| Sahibkar qoyuluşu | | 3,802,650 | 3,802,650 |
| Bölüşdürülməmiş mənfəət | | 3,059,342 | 1,956,668 |
| | | **6,865,742** | **5,763,068** |
| Azlıqların payı | | 179,725 | 186,300 |
| **CƏMİ KAPİTAL** | | **7,045,467** | **5,949,368** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | 31,699,748 | 14,247,468 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **31,699,748** | **14,247,468** |
| **Cari öhdəliklər** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | 4,963,950 | 5,158,400 |
| Qısamüddətli kreditor borcları | 11 | 18,264,199 | 3,773,033 |
| **Cəmi cari öhdəliklər** | | **23,228,149** | **8,931,433** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **54,927,897** | **23,178,901** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **61,973,364** | **29,128,269** |

28 aprel 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Azərbaycan Respublikası * EMBA-WOOD məhdud məsuliyyətli cəmiyyəti * Azerbaijan Republic

Baş Direktor

Baş Mühasib

**Embawood MMC**
**Konsolidə edilmiş Məcmu Gəlirlər haqqında Hesabat**
(Azərbaycan Manatı ilə)

| | Qeyd | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2015-ci il tarixində bitən il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 13 | 31,435,734 | 22,986,047 |
| Satışların maya dəyəri | 14 | (16,723,247) | (10,331,738) |
| **Ümumi mənfəət** | | **14,712,487** | **12,654,309** |
| Sair əməliyyat (xərcləri)/gəlirləri | | (3,271) | 18,595 |
| İnzibati xərclər | 15 | (11,722,613) | (13,103,458) |
| **Əməliyyat mənfəəti** | | **2,986,603** | **(430,554)** |
| Maliyyə xərcləri | | (1,016,179) | (730,099) |
| Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan xalis fərq | | (478,994) | 734,564 |
| Daşınmaz əmlaka investisiyaların ədalətli dəyərində dəyişikliklər | 5 | (96,211) | 1,139,047 |
| **Vergiqoyulmadan əvvəl mənfəət** | | **1,395,219** | **712,958** |
| Mənfəət vergisi xərci | 16 | (299,120) | (280,000) |
| **İl üzrə xalis mənfəət** | | **1,096,099** | **432,958** |
| İl üzrə digər məcmu gəlirlər | | - | - |
| **İl üzrə cəmi məcmu gəlirlər** | | **1,096,099** | **432,958** |

28 aprel 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Azərbaycan Respublikası «EMBA-WOOD» məhdud məsuliyyətli cəmiyyəti Azerbaijan Republic

Baş Direktor

A. [signature]

Baş Mühasib

**Embawood MMC**
**Konsolidə edilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat**
(Azərbaycan Manatı ilə)

| | Nizamnamə kapitalı | Sahibkar qoyuluşu | Bölüşdürülməmiş mənfəət | Cəmi | Azlıqların payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il tarixinə qalıq dəyəri** | **3,750** | **-** | **1,598,050** | **1,601,800** | **111,299** | **1,713,099** |
| Əmlak şəklində sahibkar qoyuluşu | - | 3,802,650 | - | 3,802,650 | - | 3,802,650 |
| Xalis zərər | - | - | 432,958 | 432,958 | - | 432,958 |
| İl üzrə digər məcmu gəlirlər | - | - | - | - | - | - |
| Azlıqların payı | - | - | (74,340) | (74,340) | 75,001 | 661 |
| **31 dekabr 2015-ci il tarixinə qalıq dəyəri** | **3,750** | **3,802,650** | **1,956,668** | **5,763,068** | **186,300** | **5,949,368** |
| Əmlak şəklində sahibkar qoyuluşu | - | - | - | - | - | - |
| Xalis mənfəət | - | - | 1,096,099 | 1,096,099 | - | 1,096,099 |
| İl üzrə digər məcmu gəlirlər | - | - | - | - | - | - |
| Azlıqların payı | - | - | 6,575 | 6,575 | (6,575) | - |
| **31 dekabr 2016-cı il tarixinə qalıq dəyəri** | **3,750** | **3,802,650** | **3,059,342** | **6,865,742** | **179,725** | **7,045,467** |

28 aprel 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Baş Direktor

Baş Mühasib

**Embawood MMC**
**Konsolidə edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat**
(Azərbaycan Manatı ilə)

| | Qeyd | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2015-ci il tarixində bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət/(zərər) | | 1,096,099 | 432,958 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| Mənfəət vergisi üzrə xərclər | | 299,120 | 280,000 |
| Əsas vəsaitlərin köhnəlməsi | | 722,552 | 808,084 |
| Maliyyə xərcləri | | 1,016,179 | 730,099 |
| Məzənnə dəyişikliklərindən yaranan xalis fərq | | 478,993 | (734,564) |
| Daşınmaz əmlaka investisiyaların ədalətli dəyərində azalma/(artım) | | 96,211 | (1,139,047) |
| Sair əməliyyat gəlirləri | | 27,271 | (2,109) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **3,736,425** | **375,421** |
| **Əməliyyat aktivlərində (artım)/azalma:** | | | |
| Ehtiyatlar | | (17,202,156) | 958,043 |
| Qısamüddətli debitor borcları | | 349,145 | (4,656,278) |
| Sair qısamüddətli aktivlər | | (3,523,790) | (960,754) |
| **Əməliyyat öhdəliklərində artım/(azalma):** | | | |
| Qısamüddətli kreditor borcları | | 16,306,382 | 2,590,458 |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş pul vəsaitləri** | | **(333,994)** | **(1,693,110)** |
| Ödənilmiş mənfəət vergisi | | (299,120) | (280,000) |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş pul vəsaitlərinin xalis hərəkəti** | | **(633,114)** | **(1,973,110)** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitin satışından daxil olmalar | | - | 15,725 |
| Əsas vəsaitlərin əldə edilməsi | | (366,153) | (221,533) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş pul vəsaitlərinin xalis hərəkəti** | | **(366,153)** | **(205,808)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən daxilolmalar | | 23,216,714 | 1,849,649 |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılması | | (8,129,956) | (12,562,722) |
| Faiz ödənişləri | | (1,016,179) | (730,099) |
| **Maliyyə fəaliyyətindən yaranan/(fəaliyyətinə yönəldilmiş) pul vəsaitlərinin xalis hərəkəti** | | **14,070,579** | **(11,443,172)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinə valyuta mübadiləsi fərqlərinin təsiri** | | 235,750 | 7,425,369 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | | **13,307,062** | **(6,196,721)** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan qalığı | 9 | 1,992,016 | 8,188,737 |
| **İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması/(azalması)** | | **13,307,062** | **(6,196,721)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | 9 | **15,299,078** | **1,992,016** |

28 aprel 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

Baş Direktor

Baş Mühasib

## 1 Qrup və Onun Əməliyyatları

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2016-cı il tarixində bitən il üzrə, bundan sonra birlikdə "Qrup" adlandırılacaq, Embawood MMC ("Şirkət") və onun törəmə müəssisəsi olan Masallı Konserv Zavodu ASC ("Törəmə müəssisə") üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 23 iyul 2007-ci il tarixli I-73/1 nömrəli əmri ilə təsdiq edilmiş Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına ("MMUS") uyğun şəkildə tərtib edilmişdir.

Şirkət Azərbaycan Respublikasında yaradılmış və payçılarının məhdud məsuliyyət daşıdığı məhdud məsuliyyətli cəmiyyət olaraq Azərbaycan qanunvericiliyinə uyğun şəkildə təsis edilmişdir.

Şirkət hazırda Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir və Azərbaycan Respublikasında fəaliyyət göstərən mebel istehsalçısı və pərakəndə satıcısıdır. Şirkətin istehsal obyektləri əsasən Azərbaycan Respublikasının müxtəlif regionlarında yerləşdirilmişdir.

31 dekabr 2016-cı il tarixinə Şirkətin qeydiyyatdan keçmiş hüquqi ünvanı və əsas fəaliyyət yeri aşağıda göstərilmişdir:

Hüquqi ünvan: Dadaş Bünyatzadə küç. 1A, Lökbatan qəsəbəsi, Bakı AZ1063, Azərbaycan Respublikası.

Əsas fəaliyyət yeri: Bəsti Bağırova küç. 15B, Bakı AZ1065, Azərbaycan Respublikası.

31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə Şirkətin aşağıdakı pay sahibləri olmuşdur:

| **Pay sahibləri** | **31 dekabr 2016-cı il** | **31 dekabr 2015-ci il** |
|---|---|---|
| Elşad Abbasov | 36% | 36% |
| Məşhur Məmmədov | 32% | 32% |
| Bəşir Sultanov | 32% | 32% |
| | **100%** | **100%** |

Şirkət 2010-cu ildən Törəmə müəssisənin səhmlərini əldə etməyə başlamışdır və 2015-ci ilədək müəssisənin 93.39% səhmlərinə malik olmuşdur. 31 dekabr 2016-cı il tarixinə Şirkət Törəmə müəssisənin 93.45% səhmlərinə malikdir. Səhmlərin qalan 6.55% hissəsi müxtəlif fiziki şəxslərə məxsusdur.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi

***Konsolidə edilmiş maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.*** Hazırkı konsolidə edilmiş maliyyə hesabatları Azərbaycan Respublikasının Kommersiya Təşkilatları üçüb Milli Mühasibat Uçotu Standartlarına ("MMUS") uyğun olaraq hazırlanmışdır.

Qeyd olunan konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin uçot prinsipləri bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

***Təqdimat valyutası.*** Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarında, başqa cür qeyd edilmədiyi halda, bütün məbləğlər Azərbaycan manatı ("AZN") ilə ifadə edilmişdir.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** . Maliyyə aləti bir müəssisənin maliyyə aktivinin və ya maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansı müqavilədir. Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

*Ədalətli dəyər.* Ədalətli dəyər bir-birindən asılı olmayan, yaxşı məlumatlandırılmış və bu cür əməliyyatı həyata keçirməkdə maraqlı olan tərəflər arasında aktivin dəyişdirilə, öhdəliyin isə yerinə yetirilə biləcəyi məbləğdir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Qrup qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər.

Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlilindən istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən təxminlər tələb edə bilər.

*İlkin dəyər.* Aktivin ilkin dəyər əsasında qiymətləndirilməsi onun əldə edilməsi zamanı pul vəsaitlərinin və ya pul vəsaitlərinin ekvivalentlərinin ödənilmiş məbləği və ya verilmiş əvəzləşdirmənin (mübadiləyə verilmiş qeyri-monetar aktivlərin, qəbul edilmiş öhdəliklərin, buraxılmış kapital alətlərinin) ədalətli dəyəri ilə qiymətləndirilməsini nəzərdə tutur. Öhdəliyin ilkin dəyər əsasında qiymətləndirilməsi Qrupun adi iş şəraitində bu öhdəliyin yerinə yetirilməsi məqsədilə ödənilməsi gözlənilən pul vəsaitlərinin və ya onların ekvivalentlərinin məbləği, yaxud borc öhdəliyi əvəzinə alınmış pul vəsaitlərinin və ya onların ekvivalentlərinin məbləği, yaxud alınmış digər vəsaitlərin ədalətli dəyəri ilə qiymətləndirilməsini nəzərdə tutur. İlkin dəyər ilə qiymətləndirmə yalnız elan edilmiş bazar qiymətinə malik olmayan və ədalətli dəyəri etibarlı şəkildə qiymətləndirilə bilinməyən kapital alətlərinə investisiyalar üçün tətbiq edilir.

*Əməliyyat xərcləri.* Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya edilmiş dəyər.* Maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyəri, əsas məbləğ üzrə ödəmələr çıxılmaqla, effektiv faiz metodunun istifadəsi ilə ilkin məbləğ ilə ödəmə məbləği arasındakı hər hansı fərqin məcmu amortizasiyası üstəgəlinməklə və ya çıxılmaqla və qiymətdən düşmə və ya ümidsiz borclar ilə əlaqədar hər hansı azalma çıxılmaqla (birbaşa və yaxud ehtiyat hesabdan istifadə edərək) maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma zamanı qiymətləndirildiyi məbləğdir.

Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

***Effektiv faiz metodu.*** Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin (və ya maliyyə aktivləri və ya maliyyə öhdəlikləri qrupunun) amortizasiya edilmiş dəyərinin hesablanması və faiz gəliri və ya faiz xərclərinin aid olduqları dövrlər üzrə bölüşdürülməsi metodudur.

***Effektiv faiz dərəcəsi.*** Effektiv faiz dərəcəsi maliyyə alətinin gözlənilən ömrü və ya, uyğun olan zaman, daha qısa dövr ərzində qiymətləndirilmiş gələcək nağd pul ödəmələrini və ya daxilolmalarını maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin xalis balans dəyərinə qədər diskontlaşdıran faiz dərəcəsidir. Effektiv faiz dərəcəsini hesablayan zaman Qrup, maliyyə alətinin (məsələn, avans ödəmələr, alıcı opsionu və oxşar opsionlar) bütün müqavilə şərtlərini nəzərə almaqla pul vəsaitləri daxilolmalarını qiymətləndirir, lakin gələcək kredit zərərlərini nəzərə almır. Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin tərkib hissələri olan, müqavilənin tərəfləri arasında ödənilmiş və qəbul edilmiş bütün haqlar və digər məbləğlər, əməliyyat məsrəfləri və bütün digər mükafat və ya güzəştlər daxil edilir. Pul vəsaitləri axını və oxşar maliyyə alətləri qrupunun gözlənilən ömrünün etibarlı qiymətləndirilə bilməsi haqqında fərziyyə mövcuddur. Buna baxmayaraq, pul vəsaitləri axını və ya maliyyə alətinin (maliyyə alətləri qrupunun) gözlənilən ömrünün etibarlı qiymətləndirilməsinin mümkün olmadığı nadir hallarda, Qrup maliyyə alətinin (maliyyə alətləri qrupunun) müqavilə şərtləri üzrə olan pul vəsaitləri axınını bütün müqavilə müddətinə tətbiq edir.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi.*** Maliyyə aktivlərinin təsnifləşdirilməsi. Maliyyə aktivi aşağıda göstərilən bütün aktivlərdir: (a) pul vəsaitləri; (b) digər müəssisənin kapital aləti; (c) aşağıdakılar ilə əlaqədar müqavilə hüququ: (i) digər müəssisədən pul vəsaitləri və ya digər maliyyə aktivini qəbul etmək; və ya (ii) Qrup üçün potensial olaraq əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və ya öhdəliklərini digər müəssisənin maliyyə aktivləri və ya maliyyə öhdəlikləri ilə mübadilə etmək; və ya (ç) Qrupun öz kapital alətləri ilə ödəniləcək və ya ödənilə bilən və aşağıdakı şərtlərdən birinə cavab verən müqavilə: (i) əvəzində Qrupun özünün kapital alətlərinin dəyişən sayını almalı olduğu və ya almalı ola biləcəyi qeyri-törəmə aləti; və ya (ii) sabit nağd pul məbləği və ya digər maliyyə aktivinin Qrupun özünün kapital alətlərinin sabit sayı ilə dəyişdirilməsindən başqa, ödəniləcək və ya ödənilə biləcək törəmə aləti. Bu səbəbdən, müəssisənin öz kapital alətləri, özü-özlüyündə müəssisənin öz kapital alətlərinin gələcəkdə əldə olunması və ya təqdim edilməsi üzrə müqavilələr olan alətləri daxil etmir.

***Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi.*** Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi. Maliyyə öhdəliyi – aşağıda göstərilən bütün öhdəliklərdir: (a) müqavilə öhdəliyi üzrə: (i) nağd pul vəsaitlərini və ya digər maliyyə aktivini digər müəssisəyə təqdim etmək; və ya (ii) müəssisə üçün potensial olaraq əlverişli olmayan şərtlər əsasında digər müəssisə ilə maliyyə öhdəlikləri və ya maliyyə aktivlərini mübadilə etmək; və ya (b) müəssisənin öz kapital alətləri ilə ödəniləcək və ya ödənilə bilən və aşağıdakı şərtlərdən birinə cavab verən müqavilə: (i) əvəzində müəssisənin özünün kapital alətlərinin dəyişən sayını təqdim etməli olduğu və ya ola biləcəyi qeyri-törəmə aləti; və ya (ii) sabit nağd pul məbləği və ya digər maliyyə aktivinin müəssisənin özünün kapital alətlərinin sabit sayı ilə dəyişdirilməsindən başqa, ödəniləcək və ya ödənilə biləcək törəmə aləti. Bu səbəbdən, müəssisənin öz kapital alətləri, özü-özlüyündə müəssisənin öz kapital alətlərinin gələcəkdə əldə olunması və ya təqdim edilməsi üzrə müqavilələr olan alətləri daxil etmir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***Maliyyə aktivinin tanınmasının dayandırılması.*** Şirkət maliyyə aktivini yalnız və yalnız aşağıdakı hallarda tanınmasını dayandıracaqdır: (a) aktivlər geri alındıqda və ya (b) maliyyə aktivlərindən pul vəsaitlərinin hərəkətləri ilə bağlı müqavilə üzrə hüquqlar qüvvədən düşəndə; və ya (c) maliyyə aktivinin pul vəsaitlərinin hərəkətlərini qəbul etmək üçün müqavilə üzrə hüquqları köçürürsə; və ya (d) şirkət maliyyə aktivinin ("ilkin aktiv") pul vəsaitlərinin hərəkətlərini qəbul etmək üçün müqavilə üzrə hüquqları saxladığı, lakin pul vəsaitlərini bir və ya bir neçə şirkətə (son alıcılara) ödəmək üçün müqavilə öhdəliyi götürdüyü təqdirdə, həmin şirkətə bütün şərtlərə cavab verildiyi zaman maliyyə aktivinin köçürülməsi kimi əməliyyat aparır.

***Torpaq, tikili və avadanlıqlar.*** Yığılmış amortizasiya və qiymətdən düşmə zərərləri çıxıldıqdan sonra torpaq, tikili və avadanlıqlar ilkin dəyərdə aktiv kimi qeydə alınır.

Torpaq, tikili və avadanlıqlar üzrə yaranmış sonrakı məsrəflər yalnız aktivlərin mövcud istehsal səviyyəsinin artırılması və fəaliyyətinin yaxşılaşdırılmasına səbəb olduqda aktivlərin balans dəyərinə əlavə edilir. Bütün digər hallarda, torpaq, tikili və avadanlıqlar üzrə çəkilmiş sonrakı məsrəflər yarandığı dövrdə xərc kimi tanınır.

Torpaq, tikili və avadanlıqların qiymətdən düşə biləcəyini göstərən hər-hansı əlamətin mövcud olub-olmadığını Qrup hər hesabat tarixində qiymətləndirir. Əgər hər-hansı belə əlamət mövcuddursa, Qrup aktivin bərpa edilə bilən dəyərini qiymətləndirir. Torpaq, tikili və avadanlıqlar dəyərsizləşdikdə, mövcud olan iki dəyərdən ən aşağı dəyərlə: satış xərcləri çıxılmaqla ədalətli dəyəri ilə və ya balans dəyəri ilə qiymətləndirir.

Aktivin balans dəyərindəki azalma dəyərsizləşmə məbləğinin kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan həcmdə mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Torpaq, tikili və avadanlıqlar obyektinin tanınmasının dayandırılması nəticəsində yaranan qazanc və ya itki mənfəət və zərər haqqında hesabatda əks etdirilir. Obyektinin tanınmasının dayandırılması nəticəsində yaranan qazanc və ya itki dayandırılmadan əldə edilən məbləğ ilə əmlak və avadanlığın balans dəyəri arasındakı fərq kimi müəyyən edilir.

***Amortizasiya.*** Torpaq və davam etməkdə olan tikintilər üzrə köhnəlmə hesablanmır. Əmlak və avadanlığın digər maddələri üçün köhnəlmə azalan qalıq dəyəri metodundan istifadə etməklə hesablanır və bu aktiv kateqoriyaları üçün aşağıdakı dərəcələr tətbiq edilir:

| | |
|---|---|
| Binalar, tikililər və qurğular | 7% illik (azalan qalıq dəyəri əsasında); |
| Maşınlar, avadanlıqlar və hesablama texnikası | 25% illik (azalan qalıq dəyəri əsasında); |
| Nəqliyyat vasitələri | 25% illik (azalan qalıq dəyəri əsasında); |
| Digər əsas vəsaitlər | 25% illik (azalan qalıq dəyəri əsasında). |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin son qalıq dəyəridir. Əmlak və avadanlılar üzrə tətbiq edilən amortizasiya metodu, avadanlıqların qalıq dəyərləri və onların faydalı xidmət müddətləri ən azından hər maliyyə ilinin sonunda yenidən nəzərdən keçirilir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırki konsolidə edilmiş maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan vergi qanunvericiliyinə və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinə uyğun olaraq göstərilmişdir. Vergi xərci (vergi gəliri) cari və təxirə salınmış vergilərlə əlaqədar olaraq dövr üzrə xalis mənfəət və ya zərərin hesablanmasına daxil edilən məcmu məbləğdir.

***Vergi tutulan mənfəət (vergi zərəri)*** – Azərbaycan Respublikasının Vergi Orqanları tərəfindən qoyulan qaydalara uyğun olaraq müəyyən olunan, mənfəət vergisinin hesablandığı dövr üzrə mənfəət və ya zərərdir.

***Cari vergi*** - əvvəlki dövrlər üzrə düzəlişlər nəzərə alınmaqla, hesabat dövrü üzrə vergi tutulan mənfəət və ya zərər ilə əlaqədar ödənilməli və ya əvəzi alınmalı olan vergi məbləğidir. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

***Təxirə salınmış vergi*** - cari və keçmiş dövrlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətləndirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi aktivi aşağıda göstərilən mənbələrdən yarandığı hallardan başqa, bütün çıxılan müvəqqəti fərqlər üçün tanınır. Lakin bu təxirə salınmış vergi aktivi vergi tutulan mənfəətin gələcəkdə mövcud olacağı və çıxılan müvəqqəti fərqlərin həmin mənfəət hesabına istifadə olunacağı miqdarda tanınır: (a) təxirə salınmış mənfəət kimi uçota alınan mənfi qudvil; və ya (b) müəssisələrin birləşməsi olmayan və əməliyyatın həyata keçirildiyi anda uçot mənfəətinə və vergi tutulan mənfəətə təsir göstərməyən əməliyyatlar üzrə aktiv və ya öhdəliyin ilkin tanınması.

Qrup törəmə müəssisələrə, filiallara və asılı şirkətlərə, habelə birgə şirkətlərdə iştirak paylarına qoyulmuş investisiyalar ilə bağlı bütün çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivini yalnız aşağıdakı ehtimalların mövcud olduğu təqdirdə tanıyır: (a) müvəqqəti fərq yaxın gələcəkdə bərpa olunacaq; və (b) müvəqqəti fərqin istifadə olunması üçün vergi tutulan mənfəət əldə olunacaq.

***Təxirə salınmış vergi öhdəlikləri*** – vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisi məbləğidir. Təxirə salınmış vergi öhdəliyi, onun aşağıdakılardan yarandığı hallar istisna olmaqla, bütün vergi tutulan müvəqqəti fərqlərlə əlaqədar tanınır: (a) qiymətdəndüşmə zərəri vergi məqsədləri üçün çıxıla bilməyən qudvil; və ya (b) şirkətlərin birləşməsi olmayan və əməliyyatın həyata keçirildiyi anda uçot mənfəətinə və vergi tutulan mənfəətə təsir göstərməyən əməliyyat üzrə aktiv və ya öhdəliyin ilkin tanınması.

Qrup aşağıdakı hər iki şərtə eyni zamanda cavab verməsi halları istisna olmaqla, törəmə şirkətlərə, filiallara və asılı şirkətlərə, habelə birgə şirkətlərdə iştirak paylarına investisiyalar ilə bağlı bütün vergi tutulan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi öhdəliyini tanıyır: (a) əsas şirkət, investor və ya sahibkar müvəqqəti fərqin bərpa olunmasının vaxt üzrə paylanmasını idarə edə bilir; və (b) müvəqqəti fərqin yaxın gələcəkdə bərpa olunmayacağı ehtimalı mövcuddur.

***Ehtiyatlar***. Ehtiyatlara aşağıdakı aktivlər aiddir: (a) Qrupun adi fəaliyyəti zamanı satış məqsədilə saxlanılan; (b) satış üçün istehsal prosesində hazırlanmaqda olan; və ya (c) xidmətlərin göstərilməsi prosesində sərf edilən xammal və materiallar formasında çıxış edən.

Ehtiyatlar mövcud olan iki dəyərdən ən aşağı dəyərlə qiymətləndirilir: ilkin dəyər və ya mümkün xalis satış dəyəri.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Ehtiyatların ilkin dəyərinə onların əldə edilməsi, istehsalı və ya emalı və hazırkı vəziyyətə və yerləşdiyi əraziyə gətirilməsinə çəkilən digər məsrəflər daxil edilməlidir. Xüsusiyyəti və istifadə edilməsi baxımından eyni olan bütün ehtiyatlar bir qrupda cəmləşdirilir və bu qrupların ilkin dəyəri çəkili orta dəyər düsturu əsasında hesablanır.

***Mümkün xalis satış dəyəri*** – adi fəaliyyət zamanı nəzərdə tutulmuş satış qiymətindən işin tamamlanmasına çəkilməsi ehtimal edilən xərclər və satışın həyata keçirilməsi üçün ehtimal edilən xərclər çıxıldıqdan sonra qalan məbləğdir.

***Debitor borcları.*** Debitor borcları ilkin olaraq ədalətli dəyərdə tanınır və sonralar effektiv faiz metodundan istifadə edərək amortizasiya dəyərində qiymətləndirilir.

***Amortizasiya edilmiş dəyəri ilə uçota alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Əgər amortizasiya dəyərində uçota alınan ticarət debitor borcları və ya ödəmə müddəti başa çatana qədər saxlanılmış investisiyada qiymətdəndüşmədən dəyən zərərə məruz qalınmasına aid obyektiv sübut varsa, zərərin məbləği aktivin balans dəyəri ilə maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsi (bu effektiv faiz dərəcəsi metodu ilkin tanınmada hesablanır) metodu diskontlaşdırılmış gələcək pul vəsaitlərinin cari dəyəri arasındakı fərq kimi (məruz qalmamış gələcək kredit (borc) zərərləri istisna olaraq) qiymətləndirilir. Aktivin balans dəyəri birbaşa uçotdan istifadə edərək azaldılır. Zərərin məbləği mənfəət və ya zərərdə tanınır.

Maliyyə aktivinin qiymətdəndüşməsi məsələsinə baxarkən Qrupun nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçmiş statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Qiymətdəndüşmədən dəyən zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- debitorun və ya borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Qrup borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- debitorun və ya borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- debitor və ya borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Qrup birinci növbədə eyni dərəcədə əhəmiyyətli olan maliyyə aktivləri üçün ayrı- ayrılıqda və eyni dərəcədə əhəmiyyətli olmayan maliyyə aktivləri üçün ayrı-ayrılıqda və ya kollektiv şəkildə qiymətdəndüşmə ilə bağlı obyektiv sübutun olub-olmamağını müəyyən edir.

Əgər müəssisə müəyyən edirsə ki, fərdi olaraq qiymətləndirilmiş maliyyə aktivinin qiymətdəndüşməsi haqqında heç bir obyektiv sübut yoxdur, əhəmiyyətli olub-olmamağından asılı olmayaraq o, həmin aktivi eyni kredit (borc) riski xüsusiyyətləri ilə maliyyə aktivləri qrupuna daxil edir və onların ümumi şəkildə qiymətdəndüşməsini təyin edir. Qiymətdəndüşmədən dəyən zərərləri tanınan və ya tanınmaqda davam edən qiymətdəndüşmə üçün fərdi şəkildə müəyyən olunan aktivlər ümumi qiymətləndirmənin tərkibinə daxil edilmir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Əgər növbəti bir dövrdə qiymətdəndüşmədən dəyən zərərlərin məbləği aşağı düşərsə və bu azalma qiymətdəndüşmənin tanınmasından sonra baş verən hadisə ilə obyektiv şəkildə əlaqələndirilə bilərsə (debitorun və ya borcalanın kredit reytinqinin (ödəmə qabiliyyətinin) təkmilləşdirilməsi kimi), əvvəlcədən tanınmış qiymətdəndüşmədən dəyən zərərlərin birbaşa uçotuna düzəliş etməklə ləğv edilir. Bu ləğvetmə maliyyə aktivinin balans dəyəri ilə (qiymətdəndüşmənin ləğv edildiyi tarixdə tanınmamış qiymətdəndüşmə ilə aparılmış amortizasiya dəyərdindən artıq olduğu balans dəyəri) nəticələnmir. Ləğvetmə məbləği mənfəət və ya zərərdə tanınır.

***Avans ödənişləri.*** Avans ödənişləri maya dəyərində qeydə alınır. Avans ödənişi üzrə mal və xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu ödəniş ilkin olaraq uçotda uzunmüddətli kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir.

Aktivi əldə etmək üçün avans ödənişləri Qrup bu aktiv üzərində nəzarət əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu mal və xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir.

Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar, yaxud xidmətlərin əldə edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır.

***Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin komponentləri.*** Pul vəsaitləri nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir. Pul vəsaitlərinin ekvivalentləri qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən 3 ay və ya daha az ödəniş müddətinə malik olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və bu aktivlər üzrə dəyərin dəyişməsi riskinə cüzi məruz qalan yüksək likvidli qoyuluşlardır.

***Əlavə Dəyər Vergisi və digər vergilər.*** Pul vəsaitlərinin hərəkəti, onunla bağlı hər hansı alınmış aktivlər üzrə əvəzləşdirilən ƏDV, habelə, satış ilə bağlı ƏDV və digər vergilər çıxılmaqla göstərilir. Vergi orqanlarına ödənilməli və ya vergi orqanlarından alınmalı olan vergi məbləğlərinin dəyişdirilməsi əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətinə aid edilir. Vergi orqanlarına ödənilməli və ya vergi orqanlarından alınmalı olan əhəmiyyətli məbləğlər investisiya fəaliyyətinə və ya maliyyələşdirmə üzrə fəaliyyətə xüsusi olaraq aid edildiyi halda, bu məbləğlər fəaliyyətin müvafiq növü üzrə pul vəsaitlərinin hərəkəti kimi açıqlanır.

ƏDV və ya satışdan digər vergilərin əvəzləşdirilməsinə məhdudiyyətlər tətbiq edildikdə, əvəziləşdirilməyən məbləğ bu məhdudiyyətlərlə bağlı fəaliyyətin müvafiq növündən yaranan pul vəsaitlərinin hərəkətinə aid edilir.

Şirkətin mənfəət vergisi, ƏDV və ya satışdan digər vergilər istisna olmaqla, vergi məbləğlərinin hərəkəti onun yaranmasına səbəb olan fəaliyyətin müvafiq növləri üzrə pul vəsaitlərinin hərəkətinə aid edilir.

***Əlavə Dəyər Vergisi.*** Vergi qurumları tərəfindən satışlar və alışlar üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis əsasda hesablanmasına icazə verilir.

*Ödəniləcək ƏDV* - balans hesabatı tarixində alışlar üzrə hesablanmış ƏDV çıxılmaqla, müştərilərdən debitor borclarının yığılması üzrə vergi qurumlarına ödəniləcək satışla bağlı ƏDV-ni əks etdirir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Əlavə olaraq, ödəniləcək ƏDV-yə balans hesabatı tarixində hesablanmamış satışla bağlı ƏDV (təxirə salınmış ƏDV) də daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat ayrıldığı halda dəyərsizləşmə üzrə zərər ƏDV də daxil olmaqla, debitor borclarının ümumi məbləği üzrə qeyd edilir.

Müvafiq təxirə salınmış ƏDV öhdəliyi debitor borcunun vergi məqsədləri üçün silinməsinə qədər qüvvədə qalır.

*Əvəzləşdiriləcək ƏDV* - balans hesabatı tarixində hesablanmamış alışlara aid edilir. Əvəzləşdiriləcək ƏDV alışlar üzrə ödəniş edildikdə satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

***Kreditor borcları.*** Kreditor borcları qarşılıqlı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır və sonralar effektiv faiz metoduna əsasən amortizasiya dəyərində qeydə alınır.

***Dividentlər.*** Qrupun xalis mənfəətinin səhmdarlar arasında onların müvafiq iştirak paylarına uyğun olaraq bölüşdürülmüş məbləğləridir. Divident formasında yaranan gəlir səhmdarlar tərəfindən bu dividentləri almaq hüququ əldə olunduqda tanınır. Dividentlər öhdəlik kimi qeyd edilir, elan və təsdiq edildiyi dövrdə kapitaldan çıxılır. Hesabat dövründən sonra, lakin konsolidə edilmiş maliyyə hesabatlarının təsdiq edilməsindən əvvəl elan edilmiş istənilən dividentlər hesabat dövründən sonrakı hadisələr qeydində açıqlanır.

***Qiymətləndirilmiş öhdəliklər və digər öhdəliklər.*** Qiymətləndirilmiş öhdəliklər qısa müddətli kreditor borcları və hesablanmış borclar kimi digər öhdəliklərdən onunla fərqlənir ki, qiymətləndirilmiş öhdəliklərdən yaranan gələcək məsrəflərin ödəniş vaxtı və məbləği qeyri-müəyyəndir. Hesablanmış öhdəliklər adətən qısa müddətli kreditor borcların bir hissəsi kimi açıqlanır, qiymətləndirilmiş öhdəliklər isə ayrıca göstərilir.

Qiymətləndirilmiş öhdəliklərin şərti öhdəliklərdən fərqi aşağıdakılardan ibarətdir: (a) qiymətləndirilmiş öhdəliklər – cari öhdəlik olduğu səbəbindən və onun ödənməsi üçün iqtisadi səmərəni təcəssüm etdirən resursların xaricolmasının tələb olunacağı ehtimal olunduğu üçün (etibarlı qiymətləndirilə biləcəyini nəzərə almaqla) öhdəlik kimi tanınır; və (b) şərti öhdəliklər – aşağıdakı səbəblərə görə öhdəlik kimi tanınmır: (i) mümkün öhdəlikdir, çünki onun iqtisadi səmərəni təcəssüm etdirən vəsaitlərin xaricolmasına gətirib çıxara bilən cari öhdəlik olub olmaması hələ də təsdiqlənir; ya da (ii) cari öhdəlikdir, lakin hazırkı Standartın tanınma meyarına cavab vermir

***Gəlirlərin tanınması.*** Gəlirlər onlar ilə əlaqədar gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal olunduğu və bu səmərənin dəyərinin etibarlı səviyyədə qiymətləndirilə biləcəyi anda Mənfəət və zərər haqqında hesabatda tanınır. Gəlir yalnız Qrupun hesabına daxil olmuş və ya daxil olacaq iqtisadi səmərənin ümumi mədaxilini özündə əks etdirir. Üçüncü tərəfin adından yığılan vəsaitlər Qrupa daxil olan iqtisadi səmərə hesab edilmir və Qrupun kapitalının artması ilə nəticələnmir. Bu səbəbdən, belə vəsaitlərin daxil olması gəlir hesab edilməyərək Mənfəət və zərər haqqında hesabatda və kapitalda tanınmır.

Əməliyyatdan yaranan gəlirin məbləği, adətən Qrupa və aktivin alıcısı və ya istifadəçisi arasındakı razılaşma əsasında müəyyənləşdirilir. Bu gəlir Qrup tərəfindən aktivin satılması nəticəsində, təqdim olunan hər hansı satış endirimləri nəzərə alınmaqla, əldə olunmuş və ya əldə edilməsi gözlənilən ödəmənin ədalətli dəyəri ilə qiymətləndirilir. Bu gəlir pul vəsaitləri və ya onların ekvivalentləri, qeyri-pul (qeyri-monetar) aktivləri, habelə Qrupun öhdəliklərinin azalması şəklində əldə edilə bilər.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

***Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları*** – müəssisələr qrupunun vahid mühasibat uçotu subyekti kimi təqdim etdiyi maliyyə hesabatlarıdır.

Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hazırlayarkən müəssisə, analoji aktiv, öhdəlik, kapital, gəlir və xərc maddələrini sətirbəsətir toplamaqla əsas müəssisənin və onun törəmə müəssisələrinin maliyyə hesabatlarını birləşdirir. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında qrup haqqında maliyyə məlumatlarının vahid iqtisadi subyekt kimi təqdim edilməsi üçün aşağıdakı addımlar atılmalıdır:

(a) əsas müəssisənin hər bir törəmə müəssisəyə qoyduğu investisiyanın balans dəyəri və əsas müəssisənin hər bir törəmə müəssisənin kapitalındakı payı ləğv edilir;

(b) birləşdirilmiş (konsolidə edilmiş) törəmə müəssisələrin hesabat dövrü üzrə mənfəət və ya zərərində azlıqların payı müəyyənləşdirilir; və

(c) birləşdirilmiş (konsolidə edilmiş) törəmə müəssisələrin xalis aktivlərindəki azlıqların payı əsas müəssisənin onlarda olan səhmdar payından ayrıca olaraq müəyyənləşdirilir. Xalis aktivlərdəki azlıqların payı aşağıdakılardan ibarətdir:

(i) ilkin birləşmə tarixində hesablanmış həmin azlıqların payı; və

(ii) birləşmə tarixindən etibarən azlıqların kapitalda dəyişikliklər üzrə payı.

***Azlıqların payı*** – əsas müəssisənin birbaşa və ya törəmə müəssisələr vasitəsilə dolayı yolla sahib olmadığı, lakin kapital paylarına aid olan törəmə müəssisənin mənfəət və ya zərərinin və xalis aktivlərinin bir hissəsidir.

***Törəmə müəssisə*** - əsas müəssisənin nəzarəti altında olan və onun tərəfindən idarə olunan kommersiya təşkilatıdır.

***Əhəmiyyətli təsir*** müəssisənin maliyyə və əməliyyat siyasəti ilə bağlı qərarların verilməsində iştirak etmək səlahiyyətidir, lakin həmin siyasət üzərində nəzarəti və ya birgə nəzarəti təmin etmir.

Əgər investor, birbaşa və ya dolayı olaraq (məsələn, törəmə müəssisələri vasitəsilə), investisiya obyektinin səsvermə hüququ verən səhmlərinin 20 və ya daha çox faizinə sahib olarsa, onun əhəmiyyətli təsirə malik olduğu hesab olunur. Lakin buna baxmayaraq, səhmlərin 20 və ya daha çox faizinə sahib olmaqla yanaşı əhəmiyyətli təsirə malik olmamaq mümkündür.

Digər tərəfdən, əgər investor, birbaşa və ya dolayı olaraq (məsələn, törəmə müəssisələri vasitəsilə), investisiya obyektinin səsvermə hüququ verən səhmlərinin 20 faizindən az faizinə sahib olarsa, onun əhəmiyyətli təsirə malik olmadığı hesab olunur. Lakin buna baxmayaraq, səhmlərin 20 faizindən az faizinə sahib olmaqla yanaşı əhəmiyyətli təsirə malik olmaq mümkündür. Səhmlərin mühüm hissəsinin və ya nəzarət paketinin digər investora məxsus olması, investorun əhəmiyyətli təsirə malik olmasına mütləq şəkildə maneə yaratmır.

***İştirak payı metodu.*** İştirak payı metoduna əsasən asılı təsərrüfat cəmiyyətinə qoyulmuş investisiya məbləği əvvəlcə ilkin dəyəri ilə tanınır və investisiya obyektinin alış tarixindən sonra əldə etdiyi mənfəət və ya zərərində investorun payını tanımaq üçün investisiyanın balans dəyəri artırılır və ya azaldılır.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

İnvestorun investisiya obyektinin mənfəət və ya zərərindəki payı investorun mənfəət və ya zərərində tanınır. İnvestisiya obyektindən əldə olunan bölüşdürmələr investisiyanın balans dəyərini azaldır. Balans dəyərinə düzəlişlər həmçinin, investisiya obyektinin kapitalında baş vermiş dəyişikliklərdən irəli gələn və ivestisiya obyektinin mənfəət və ya zərərində hələ tanınmayan məbləğlərin investorun investisiya obyektindəki mütənasib iştirak payına təsirini əks etdirmək üçün tələb oluna bilər. Bu dəyişikliklərə torpaq, tikili və avadanlıqların yenidən qiymətləndirilməsindən və məzənnə fərqlərindən yaranan dəyişikliklər aiddir. İnvestorun bu dəyişikliklərdəki payı birbaşa investorun kapitalında tanınır.

***Əlaqəli tərəflər və onlarla əməliyyatlar.*** Hüquqi və ya fiziki şəxs aşağıdakı şərtləri ödədikdə, müəssisə ilə əlaqəli tərəf hesab edilir:

(a) birbaşa və ya dolayı yolla bir və ya bir neçə vasitəçi ilə:

(i) müəssisəyə nəzarət edir, müəssisə tərəfindən nəzarət olunur və ya müəssisə ilə birlikdə ümumi nəzarət altındadırsa (bura əsas müəssisə, törəmə müəssisə və eyni əsas müəssisəyə aid olan törəmə müəssisələr daxildir);

(ii) müəssisədə əhəmiyyətli təsirə malik olmasını təmin edən paya malikdirsə; və ya

(iii) müəssisəyə birgə nəzarət edirsə;

(b) müəssisənin asılı müəssisəsidirsə;

(c) müəssisənin sahibkar olaraq iştirak etdiyi birgə fəaliyyətdirsə;

(ç) müəssisənin və ya onun əsas müəssisəsinin idarə heyətinin üzvüdürsə;

(d) (a) və ya (ç) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvüdürsə;

(e) (ç) və ya (d) bəndlərində göstərilən şəxslərin nəzarət etdiyi, onlarla birgə nəzarət edilən və ya həmin şəxslərin əhəmiyyətli təsirə malik olduğu müəssisədirsə, ya da birbaşa və ya dolayı yolla həmin müəssisədə əhəmiyyətli səsvermə hüququna malik olduğu müəssisədirsə; və ya

(ə) müəssisənin və ya müəssisə ilə əlaqəli olan hər hansı müəssisənın işçiləri üçün pensiya təminatı planıdırsa.

*Əlaqəli tərəflərlə əməliyyatlar* qiymətin hesablanmasından asılı olmayaraq, əlaqəli tərəflər arasında ehtiyatların, xidmətlərin və ya öhdəliklərin köçürülməsidir.

***Xarici valyutanın çevrilməsi.*** Qrupun əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Qrupun əməliyyat valyutası və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Hər balans tarixində xarici valyuta ilə olan monetar aktiv və öhdəliklər son məzənnədən, yəni Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") balans tarixinə qüvvədə olan spot mübadilə məzənnəsindən istifadə etməklə əməliyyat valyutasına çevrilir.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nın rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir. Xarici məzənnə fərqlərindən yaranan bütün gəlir və zərərlər mənfəət və ya zərər hesabatında "Məzənnə fərqindən yaranan gəlir (zərər)" maddəsində təqdim edilmişdir.

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır. Hər balans hesabatı tarixində: (a) xarici valyuta ilə olan monetar maddələr son məzənnədən istifadə etməklə çevrilirlər; (b) xarici valyuta ilə olan və ilkin dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr əməliyyatın həyata keçirilmə tarixinə mövcud olan məzənnəyə görə çevrilirlər; və (c) xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə görə çevrilirlər.

İstifadə edilmiş qüvvədə olan valyuta məzənnələri aşağıdakılardır:

| | **Aşağıdakı tarixdə bitən il üzrə** | |
|---|---|---|
| | **31 dekabr 2016-cı il** | **31 dekabr 2015-ci il** |
| İlin sonuna məzənnə (AZN/USD) | 1.7707 | 1.5594 |
| İlin sonuna məzənnə (AZN/EUR) | 1.8644 | 1.7046 |

***Daşınmaz əmlaka investisiyalar (investisiya məqsədli daşınmaz əmlak)***, aşağıdakılar istisna olmaqla, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması məqsədilə və ya hər iki məqsəd üçün saxlanılan (mülkiyyətçi və ya maliyyə icarəsi şərtlərinə əsasən icarəçi tərəfindən) əmlakdır (torpaq və ya tikili — ya da tikilinin bir hissəsi — və ya hər ikisi):

(a) malların istehsalı və ya təchizatı, yaxud xidmətlərin göstərilməsi üçün istifadə edilən və ya inzibati məqsədlər üçün saxlanılan; və ya

(b) adi fəaliyyət halında satış məqsədilə saxlanılan.

İnvestisiya məqsədli daşınmaz əmlak yalnız aşağıdakı hallarda aktiv kimi tanınır:

(a) investisiya məqsədli daşınmaz əmlak ilə bağlı gələcək iqtisadi səmərələrin müəssisəyə axını ehtimal olunduqda; və

(b) investisiya məqsədli daşınmaz əmlakın dəyərinin etibarlı əsasda qiymətləndirilməsi mümkün olduqda.

Müəssisə, bu tanınma meyarlarına uyğun olaraq, investisiya məqsədli daşınmaz əmlakı üzrə bütün məsrəfləri onların yarandığı anda qiymətləndirir. Bu məsrəflər, daşınmaz əmlakın əldə olunması üçün ilkin olaraq çəkilmiş və daha sonra bu daşınmaz əmlaka əlavələrin edilməsi, onun hissələrinin əvəz edilməsi və ya ona xidmətin göstərilməsi üzrə yaranan məsrəfləri daxil edir. 27 saylı MMUS-un 15-ci maddəsində təqdim edilmiş tanınma meyarlarına əsasən, investisiya məqsədli daşınmaz əmlakın balans dəyərində bu daşınmaz əmlakın gündəlik xidmət məsrəfləri tanınmır. Həmin məsrəflər yarandıqları dövrlər üzrə mənfəət və zərər haqqında hesabatda tanınır. İnvestisiya məqsədli daşınmaz əmlakın hissələri dəyişdirilmə yolu ilə əldə edilərsə, müəssisə investisiya məqsədli daşınmaz əmlakın balans dəyərində belə əvəzləşdirilən hissələr üzrə yaranan və tanınma meyarlarına cavab verən məsrəfləri onların yarandığı anda tanıyır.

## 2 Əsas Uçot Prinsiplərinin Xülasəsi (Davamı)

Həmin əvəz edilən hissələrin balans dəyərlərinin tanınması 27 saylı MMUS-un tanınmanın dayandırılması ilə bağlı müddəalarına uyğun olaraq dayandırılır.

***Daşınmaz əmlaka investisiyaların yenidən qiymətləndirilməsindən gəlir.*** Daşınmaz əmlakın aktivləri ədalətli dəyər əsasında hesablanır və daşınmaz əmlakın ədalətli dəyərində əvvəlki hesabatdan fərqli hər hansı dəyişiklik olduqda bu, mənfəət və zərər haqqında hesabatda gəlir və ya zərər qismində tanınır.

## 3 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin balans hesabatına daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***Konsolidə edilmiş maliyyə hesabatlarına dərc edildikdən sonra əlavələr.*** Konsolidə edilmiş maliyyə hesabatlarına dərc edildikdən sonra hər hansı dəyişikliklərin edilməsi üçün bu konsolidə edilmiş maliyyə hesabatlarının dərc edilməsini rəsmiləşdirən Qrupun rəhbərliyinin təsdiqi tələb olunur.

Qrup növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Konsolidə edilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin faydalı xidmət müddəti.*** Rəhbərlik, əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə təxmin edilən ədalətli dəyəri və müvafiq amortizasiya ayırmalarını müəyyən edir. Bu təxminlər, Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır.

Əgər faydalı xidmət müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik amortizasiya ayırmasını artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri siləcəkdir. Faydalı xidmət müddətinə hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda göstərilən şərtlərdən və ya ehtimallardan hər hansı birində dəyişiklik gələcək köhnəlmə dərəcələrinə düzəlişlərlə nəticələnə bilər.

***Debitor borclarının dəyərsizləşməsi.*** Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar fərdi olaraq müştərilərdən debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır.

Müştərinin əhəmiyyətli maliyyə çətinlikləri, onun müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

## 3 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (Davamı)

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir. Debitor borclarının qiymətdəndüşmə kimi dəyərləndirilən gələcək pul vəsaitləri axını aktivlərin müqavilə üzrə pul vəsaitləri şəklində axınına və rəhbərliyin keçmiş dövrlərə istinadən hansı məbləğdə gecikdirilmələrin olacağı və onların hansı hissəsinin bərpa olacağını təyin etmə təcrübəsinə əsasən təxmin olunur. Keçmiş dövrlərin təcrübəsi cari müşahidə olunan məlumata köçürülərək cari vəziyyətin keçmiş dövrlərə təsir göstərməyən və keçmişə aid cari dövrdə mövud olmayan effektləri əks etdirmək üçün uyğunlaşdırılır.

## 4 Əmlak və Avadanlıqlar

| | Binalar, tikililər və qurğular | Maşınlar, avadanlıqlar, və hesablama texnikası | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il tarixinə qalıq dəyəri** | **284,471** | **1,067,726** | **911,434** | **334,532** | **2,598,163** |
| Əlavələr | 4,020,762 | - | - | 3,421 | 4,024,183 |
| Daşınmaz əmlaka investisiyalar maddəsinə transfer | (235,400) | - | - | - | (235,400) |
| Silinmələr | - | - | (13,616) | - | (13,616) |
| Köhnəlmə xərci | (284,888) | (234,491) | (223,455) | (65,250) | (808,084) |
| **31 dekabr 2015-ci il tarixinə qalıq dəyəri** | **3,784,945** | **833,235** | **674,363** | **272,703** | **5,565,246** |
| Əlavələr | - | 200,652 | 48,284 | 117,217 | 366,153 |
| Silinmələr | - | - | (27,271) | - | (27,271) |
| Köhnəlmə xərci | (264,946) | (206,778) | (172,844) | (77,984) | (722,552) |
| **31 dekabr 2016-cı il tarixinə qalıq dəyəri** | **3,519,999** | **827,109** | **522,532** | **311,936** | **5,181,576** |
| 31 dekabr 2015-ci il tarixinə dəyər | 4,094,983 | 5,920,173 | 2,412,845 | 878,698 | 13,306,699 |
| Yığılmış köhnəlmə | (310,038) | (5,086,938) | (1,738,482) | (605,995) | (7,741,453) |
| **31 dekabr 2015-ci il tarixinə qalıq dəyəri** | **3,784,945** | **833,235** | **674,363** | **272,703** | **5,565,246** |
| 31 dekabr 2016-cı il tarixinə dəyər | 4,094,983 | 6,120,825 | 2,433,858 | 995,915 | 13,645,581 |
| Yığılmış köhnəlmə | (574,984) | (5,293,716) | (1,911,326) | (683,979) | (8,464,005) |
| **31 dekabr 2016-cı il tarixinə qalıq dəyəri** | **3,519,999** | **827,109** | **522,532** | **311,936** | **5,181,576** |

## 5 Daşınmaz Əmlaka İnvestisiyalar

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| **1 yanvar tarixinə daşınmaz əmlaka investisiyaların ədalətli dəyəri** | **1,374,447** | - |
| Əsas vəsaitlərdən transfer | - | 235,400 |
| Ədalətli dəyər düzəlişləri üzrə xalis (zərər)/gəlir | (96,211) | 1,139,047 |
| **31 dekabr tarixinə daşınmaz əmlaka investisiyaların ədalətli dəyəri** | **1,278,236** | **1,374,447** |

Daşınmaz əmlaka investisiyalar Törəmə müəssisənin 2015-ci ildən başlayaraq icarəyə verdiyi əmlakdan ibarətdir. Əmlak müstəqil qiymətləndirici tərəfindən 12 mart 2015-ci il tarixində yenidən qiymətləndirilmişdir və yenidən qiymətləndirmədən yaranan gəlir Məcmu Gəlirlər haqqında Hesabatda "Daşınmaz əmlaka investisiyaların ədalətli dəyərində dəyişikliklər" sətrində qeyd edilmişdir.

2016-cı il ərzində Qrupun rəhbərliyi tərəfindən icarəyə verilən əmlakın ədalətli dəyəri yenidən qiymətləndirilmiş və əmlak üzrə qiymətdən düşmə hesablanmışdır ki, bunun nəticəsində yaranan zərər Məcmu Gəlirlər haqqında Hesabatda "Daşınmaz əmlaka investisiyaların ədalətli dəyərində dəyişikliklər" sətrində qeyd edilmişdir.

## 6 Ehtiyatlar

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Xammal | 20,192,480 | 3,689,254 |
| Hazır Məhsul | 2,996,418 | 2,058,116 |
| Mallar | 525,938 | 765,310 |
| **Cəmi ehtiyatlar** | **23,714,836** | **6,512,680** |

## 7 Qısamüddətli Debitor Borcları

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Qısamüddətli debitor borcları | 8,686,184 | 7,731,142 |
| **Qısamüddətli debitor borcları daxilində cəmi maliyyə aktivləri** | **8,686,184** | **7,731,142** |
| Tədarükçülərə təqdim edilmiş avanslar | 1,726,271 | 3,389,345 |
| **Cəmi qısamüddətli debitor borcları** | **10,412,455** | **11,120,487** |

## 8 Sair Qısamüddətli Aktivlər

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Vergi və digər dövlət agentlikləri ilə hesablaşmalar | 6,087,183 | 2,563,393 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **6,087,183** | **2,563,393** |

## 9 Pul Vəsaitləri və Onların Ekvivalentləri

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Nağd pul | 110,255 | 5,297 |
| Bank hesablarındakı pul vəsaitləri | 15,188,823 | 1,986,719 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **15,299,078** | **1,992,016** |

## 10 Nizamnamə Kapitalı

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Elşad Abbasov | 1,350 | 1,350 |
| Məşhur Məmmədov | 1,200 | 1,200 |
| Bəşir Sultanov | 1,200 | 1,200 |
| **Cəmi nizamnamə kapitalı** | **3,750** | **3,750** |

## 11 Qısamüddətli Kreditor Borcları

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Sair kreditor borcları | 18,264,199 | 3,773,033 |
| **Cəmi qısamüddətli kreditor borcları** | **18,264,199** | **3,773,033** |

## 12 Faiz Xərci Yaradan Öhdəliklər

| | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| Uzunmüddətli borc öhdəliklərinin qısamüddətli hissəsi | 2,789,612 | 4,158,400 |
| Paşa Bank ASC | 1,200,000 | 1,000,000 |
| Bank of Baku | 580,000 | - |
| Bank VTB - Azərbaycan ASC | 394,338 | - |
| **Cəmi qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **4,963,950** | **5,158,400** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| Paşa Bank ASC | 16,000,000.00 | - |
| Qara Dəniz Ticarət və İnkişaf Bankı | 14,385,229 | 14,247,468 |
| Landesbank | 1,314,519 | - |
| **Cəmi uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **31,699,748** | **14,247,468** |
| **Cəmi faiz xərcləri yaradan öhdəliklər** | **36,663,698** | **19,405,868** |

## 13 Əsas Əməliyyat Gəliri

| | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2015-ci il tarixində bitən il |
|---|---|---|
| Malların təqdim edilməsindən gəlir | 31,435,734 | 22,986,047 |
| **Cəmi əsas əməliyyat gəliri** | **31,435,734** | **22,986,047** |

## 14 Satışların Maya Dəyəri

| | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2015-ci il tarixində bitən il |
|---|---|---|
| Xammal və materialların dəyəri | 15,386,257 | 8,597,102 |
| Hazır məhsulun dəyəri | 865,266 | 1,215,257 |
| Köhnəlmə xərcləri | 471,724 | 519,379 |
| **Cəmi satışların maya dəyəri** | **16,723,247** | **10,331,738** |

## 15 İnzibati Xərclər

| | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2015-ci il tarixində bitən il |
|---|---|---|
| İşçilərlə bağlı xərclər | 7,044,492 | 5,768,638 |
| Nəqliyyat xərcləri | 1,240,978 | 1,623,626 |
| İcarə xərcləri | 1,088,883 | 1,071,829 |
| Yanacaq xərcləri | 474,941 | 570,683 |
| Kommunal xərclər | 474,897 | 464,306 |
| Bank komissiyaları | 356,583 | 335,656 |
| Köhnəlmə xərcləri | 250,828 | 288,705 |
| Sığorta xərcləri | 225,624 | 308,052 |
| Reklam xərcləri | 209,854 | 207,724 |
| Rabitə xərcləri | 138,700 | 396,629 |
| Mənfəət vergisindən başqa vergilər | 74,936 | 1,875,386 |
| Mühafizə xərcləri | 72,157 | 74,642 |
| Təmir və saxlanma xərcləri | 48,157 | 54,847 |
| Ezamiyyə xərcləri | - | 26,988 |
| Digər xərclər | 21,583 | 35,747 |
| **Cəmi inzibati xərclər** | **11,722,613** | **13,103,458** |

## 16 Mənfəət Vergisi Xərci

| | 31 dekabr 2016-cı il tarixində bitən il | 31 dekabr 2016-cı il tarixində bitən il |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **1,395,219** | **712,958** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsi (20%) | 279,044 | 142,592 |
| Aşağıdakı maddələrin vergi effekti: | | |
| Keçmiş illərlə bağlı təxminlərdə dəyişikliklər | - | 364,400 |
| Təxirə salınmış vergi aktivi tanınmamış Törəmə müəssisənin il üzrə zərəri | 20,076 | (226,992) |
| **İl üzrə mənfəət vergisi xərci** | **299,120** | **280,000** |

Qrupun hazırkı konsolidə edilmiş maliyyə hesabatlarında təqdim edilmiş 2016-cı il üzrə mənfəətinə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil edir (2015-ci il: 20%).

## 17 Şərti Öhdəliklər

*Məhkəmə prosedurları.* 31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə Qrupa qarşı açıq məhkəmə prosesləri olmamışdır və müvafiq olaraq, 31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə hazırkı konsolidə edilmiş maliyyə hesabatlarında heç bir ehtiyat ayırmaları yaradılmamışdır.

*Vergi qanunvericiliyi.* Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində Qrupa qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaqdır. Buna uyğun olaraq, 31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə potensial vergi öhdəlikləri üzrə heç bir ehtiyat ayırmaları qeyd edilməmişdir.

## 18 Maliyyə Risklərinin İdarə Edilməsi

Qrupun adi fəaliyyət gedişində o, müxtəlif maliyyə risklərinə məruz qalır: bazar riski (valyuta riski, ədalətli dəyərdə faiz dərəcəsi riski, pul axınları faiz dərəcəsi riski və qiymət riski daxil olmaqla), kredit riski və likvidlik riski. Qrupda risklərin idarə edilməsi proqramı maliyyə bazarlarının qeyri-müəyyənlini nəzərə alaraq Qrupun maliyyə nəticələrinə potensial mənfi təsirləri minimallaşdırmağa çalışır.

Risklərin idarə edilməsi Qrupun rəhbərliyi tərəfindən Qrupun əməliyyat vahidləri ilə sıx əlaqədə həyata keçirilir. Rəhbərlik riskləri minimal qəbul edilən səviyyəyə gətirmək üçün bütün lazımi addımları atır.

Qrupun məruz qaldığı əsas risklər valyuta riski, bazar riski (xarici valyuta mübadiləsi riski), likvidlik riski və kredit (debitorlar) riskidir.

**Vayuta riski.** Valyuta riski ilə əlaqədar rəhbərlik valyuta təsirinə məruz qalma səviyyəsi üzrə limitlər təyin edir. Mövqelərə nəzarət edilir.

*Xarici valyuta mübadiləsi riski.* Qrup beynəlxalq əməliyyatlarda iştirak edir və müxtəlif valyuta təsirlərindən, xüsusilə də ABŞ Dolları ilə bağlı yarana biləcək xarici valyuta mübadiləsi riskinə məruz qalır.

Xarici valyuta mübadiləsi riski gələcək kommersiya əməliyyatlarının Qrupun funksional valyutası olmayan valyutada ifadə edilməsi zamanı meydana gəlir.

2015-ci il ərzində Azərbaycan Respublikasının milli valyutası – AZN iki dəfə devalvasiyaya uğramışdır. Bunun nəticəsi olaraq, AZN-in məzənnəsi ABŞ Dollarına qarşı 0.7844 AZN göstəricisindən 1.55 AZN göstəricisinədək dəyişmişdir. 2015-ci ilin dekabr ayındakı ikinci devalvasiyadan sonra Azərbaycan Respublikasının Mərkəzi Bankı Respublikada üzən məzənnə rejiminə keçildiyini elan etdi. 31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə müvafiq valyuta məzənnələri Qeyd 2 – də göstərilmişdir.

Rəhbərlik Qrupun funksional valyutasına qarşı xarici valyuta mübadiləsi riskini idarə etməsini tələb edən siyasət hazırlamışdır.

***Kredit riski.*** Bu ticarət debitor borcları ilə bağlı riskdir. Qrup kontragentin vaxtı gəldikdə öz borclarını ödəmək qabiliyyətində olmamasını nəzərdə tutan kredit riskinə məruz qalır. Hesabat dövründə Qrupun debitor borcları üzrə heç bir kredit limiti aşılmamışdır və rəhbərlik tərəfindən debitor borcları üzrə itkilər gözlənilmir.

## 18 Maliyyə Risklərinin İdarə Edilməsi (Davamı)

***Likvidlik riski.*** Şirkətin 31 dekabr 2016-cı və 31 dekabr 2015-ci il tarixlərinə likvidlik çatışmazlığı üzrə təhlili aşağıdakı cədvəldə göstərilmişdir:

| | 1-12 ay | 12 aydan çox | Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Qısamüddətli debitor borcları | 8,686,184 | - | 8,686,184 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15,299,078 | - | 15,299,078 |
| | **23,985,262** | **-** | **23,985,262** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Qısamüddətli kreditor borcları | 18,264,199 | - | 18,264,199 |
| Faiz xərcləri yaradan öhdəliklər | 4,963,950 | 31,699,748 | 36,663,698 |
| | **23,228,149** | **31,699,748** | **54,927,897** |
| **31 dekabr 2016-cı il tarixinə xalis likvidlik çatışmazlığı** | **757,113** | **(31,699,748)** | **(30,942,635)** |
| **31 dekabr 2016-cı il tarixinə məcmu likvidlik çatışmazlığı** | **757,113** | **(30,942,635)** | |

| | 1-12 ay | 12 aydan çox | Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Qısamüddətli debitor borcları | 7,731,142 | - | 7,731,142 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,992,016 | - | 1,992,016 |
| | **9,723,158** | **-** | **9,723,158** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Qısamüddətli kreditor borcları | 3,773,033 | - | 3,773,033 |
| Faiz xərcləri yaradan öhdəliklər | 5,158,400 | 14,247,468 | 19,405,868 |
| | **8,931,433** | **14,247,468** | **23,178,901** |
| **31 dekabr 2015-ci il tarixinə xalis likvidlik çatışmazlığı** | **791,725** | **(14,247,468)** | **(13,455,743)** |
| **31 dekabr 2015-ci il tarixinə məcmu likvidlik çatışmazlığı** | **791,725** | **(13,455,743)** | |

## 19 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

## 19 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (Davamı)

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə etmişdir.

***Amortizasiya olunmuş maya dəyərində saxlanılan maliyyə aktivləri.*** Üzən faiz dərəcəsinə malik alətlərin ədalətli dəyəri adətən onların qalıq dəyərinə bərabərdir. Sabit faiz dərəcəsinə malik alətlərin ehtimal edilən ədalətli dəyəri oxşar kredit riski və qaytarılma tarixinə malik yeni alətlər üzrə cari faiz dərəcələri ilə əldə edilməsi ehtimal edilən gələcək pul axınlarına əsaslanır. İstifadə edilən diskont dərəcələri kontragentin kredit riskindən asılıdır.

Debitor borclarının qalıq dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir. Qeyd 7–yə baxın.

## 20 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr

Hesabat dövründən sonra açıqlama üçün heç bir mühüm hadisə baş verməmişdir.